***Son günlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalələr xarici mətbuatın da diqqət mərkəzindədir. Mərakeşin "Hespress" nəşrində "Azərbaycan – terrorçuluğa qarşı beynəlxalq koalisiyanın fəal üzvü" sərlövhəli məqalə dərc edilib.***

# Dünya mətbuatı Qarabağdan yazır

Məqalədə Azərbaycanın terrorçuluğa qarşı beynəlxalq mübarizəyə, qlobal səylərə fəal töhfə verməsindən bəhs edilir. Qeyd olunur ki, ölkəmiz terrorçuluğa qarşı beynəlxalq koalisiyanın fəal üzvlərindən birinə hələ ABŞ-da 2001-ci il sentyabrın 11-də törədilmiş terror aktından sonra çevrilib. Bu istiqamətdə beynəlxalq çağırışlara cavab olaraq, Azərbaycan Respublikası öz hava məkanını və hava limanlarını Əfqanıstanda "Əl-Qaida" və "Taliban" terror təşkilatları ilə mübarizə aparan beynəlxalq antiterror koalisiyasının üzünə açıb.

Nəşr ötən illər ərzində Azərbaycanın Əfqanıstan və İraqda antiterror koalisiyasının digər üzvləri ilə birgə fəaliyyətini xüsusi vurğulayır və rəsmi Bakının beynəlxalq terrorçuluqla mübarizəsini təqdir edir.

Müəllif bu məqalədə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etdirilməsi terrorçuluqla mübarizəyə mane olan əsas amillər kimi dəyərləndirir. O yazır: "Məsələ ondadır ki, işğal olunmuş ərazilər istər milli, istərsə də beynəlxalq nəzarətdən kənarda qaldığından, cinayətkar qruplaşmalar üçün sığınacağa çevrilib.Azərbaycan özü hələ 1980-ci illərdən terrora məruz qalan ölkədir. Bu baxımdan, terrorçuluq onun üçün yeni anlayış deyil. Azərbaycan ərazisində Ermənistanın bilavasitə təşəbbüsü, təşkilatçılığı və iştirakı ilə törədilmiş, minlərlə insan itkisinə səbəb olmuş terror aktlarına dair kifayət qədər əsaslı dəlillər mövcuddur. 1980-ci illərin sonlarından Azərbaycan ərazilərinə iddialar irəli sürən, onun ərazi bütövlüyünə təcavüz etmiş Ermənistan burada dəfələrlə terror aktları törədib. Təəssüf ki, bu hücumların təşəbbüskarları və iştirakçıları hələ də azadlıqdadır, qanun qarşısında cavab verməyiblər."

Müəllif məqalədə erməni terrorçuluğunun dünyanın hər tərəfinə səpələnmiş ermənilər üçün vahid yaşayış məkanının yaradılması işində əsas vasitə olmasına diqqət çəkib. Bildirilir ki, ilk erməni siyasi institutları olan "Armenikan" (1885), "Hnçak" (1887) və "Erməni İnqilabi Federasiyası--Daşnaksütun" (1890) "düşmənlər"lə mübarizədə əsas vasitə kimi məhz terrordan istifadə edib. Onlar terroru erməni etnosunun, erməni qriqorian kilsəsinin etnik-dini təriqətindən dövlətçiliyə malik monoetnik millətə çevrilməsində birləşdirici vasitə sayırlar.

"1905–1907-ci illərdə, həmçinin 1918-ci ilin martında azərbaycanlılara qarşı törədilmiş amansız qətliam bunun bariz nümunəsidir. 1918-ci ildə azərbaycanlılar ən sevilən milli bayramlarını – Novruz bayramını qeyd edərkən, "Daşnaksütun"un minlərlə silahlı terrorçusu Azərbaycanın şəhər və kəndlərinə basqına başlayıb, mülki əhalini misilsiz qəddarlıqla qətliama məruz qoyub. Həmin günlərdə 20 min dinc azərbaycanlı qətlə yetirilib, 167 Azərbaycan kəndi dağıdılıb, onlardan 35-i tamamilə yerlə-yeksan edilib. Erməni terrorçuları etnik zəmində soyqırımı 1980-ci illərin ikinci yarısında Azərbaycan ərazisində əsasən sərnişin avtobuslarının və metro qatarlarının partladılması ilə davam etdiriblər."

Nəşr Ermənistan Respublikası müstəqilliyini bərpa etdikdən sonra isə 1991-ci ildən Azərbaycana qarşı ərazi iddiaları fonunda terrora dövlət səviyyəsində bəraət qazandırılmasına başlanıldığına diqqət çəkir. Vurğulanır ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, həmçinin yeddi ətraf rayonun işğalı və ilhaqında da terrordan geniş istifadə olunub.







Qeyd edilir ki, erməni diasporunun və xüsusi xidmət orqanlarının maliyyəsi və təchizatı ilə Livan, Suriya, İran, Rusiya, Ukrayna, Yunanıstan, Bolqarıstan, Fransa və ABŞ-da yaşayan 6000-dən çox erməni Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin hərbi işğalında fəal iştirak ediblər. Nəticədə 1 milyondan çox azərbaycanlı ev-eşiyindən didərgin düşüb."

Məqalədə Ermənistanın sabiq prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın Azərbaycan ərazilərinin işğalında şəxsən iştirak və orada hərbi cinayətlərə bilavasitə rəhbərlik etməsinə diqqət çəkilir: "Beləliklə, beynəlxalq humanitar normalara və müharibə haqqında beynəlxalq konvensiyalara məhəl qoymayan, terrorçuluq fəaliyyətini davam etdirən Ermənistanın bu antiinsani fəaliyyəti dünyanın sivil ölkələri tərəfindən pislənilməlidir. Beynəlxalq terrorçuluğa qarşı mübarizənin nümunələrindən olan Azərbaycanın haqq mübarizəsinə dəstək gücləndirilməlidir. Beynəlxalq terrorçuluqla mübarizədə bəzi ölkələrin ikili standartlarına son qoyulmalı, təcavüzkar ölkə öz adı ilə çağırılmalı və qınaq obyektinə çevrilməlidir."

"Yerusalem Post" nəşrində "Azərbaycan rəsmisi: "Ermənistanın İsraili tənqid etməsi ədalətsizlikdir" sərlövhəli məqalə dərc edilib. Məqalədə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin açıqlamasına yer verilib. O, "The Jerusalem Post"nəşrinə deyib ki, Ermənistanın İsrailin Azərbaycana dron satışını tənqid etməsi ədalətsizlikdir: "Əslində, Ermənistan Azərbaycanla İsrail arasında hərbi əməkdaşlığı çox şişirdir. O, bununla iki ölkə arasındakı münasibətlərə zərbə vurmağa çalışır".

Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirir ki, İsrail Azərbaycanın strateji tərəfdaşıdır. Üstəlik, Bakı bu əlaqələri yaxın aylarda, illərdə daha da dərinləşdirmək fikrindədir: "Odur ki, Ermənistanın İsrail–Azərbaycan əlaqələrinə hər hansı təsir göstərmək səyləri nəticə verməyəcək".

Hikmət Hacıyev deyir ki, İsrail--Azərbaycan əməkdaşlığı təkcə bugünkü reallıqla bağlı deyil: "Azərbaycan xalqı ilə yəhudilər arasında dostluq və əməkdaşlığın min illik tarixi var". Onun sözlərinə görə, Azərbaycanla İsrail arasında bütün sahələrdə müasir əməkdaşlığın təməli məhz xalqlar arasındakı dərin bağlılıqdır.

Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov Türkiyənin "Hürriyyət" qəzetinə açıqlama verib. Qəzet bu açıqlamanı "Tək şərt işğalın dayandırılmasıdır" sərlövhəli məqalədə verib. Azərbaycan rəsmisi BMT-nin qətnamələrinə baxmayaraq, münaqişənin 30 ildir, davam etdiyini, Ermənistanın işğalçılıq siyasəti apardığını vurğulayıb: " Azərbaycan torpaqlarında Ermənistan əsgərlərinin nə işi var? Sülh istəyən böyük dövlətlər bilirlər ki, münaqişənin kökündə Ermənistanın torpaqlarımızı işğal etməsi dayanır. Atəşkəsin deyil, işğalın dayandırılması ilə bağlı çağırışların edilməsi lazımdır."

Xələf Xələfov açıqlamasında Türkiyənin qardaş ölkə olaraq, Azərbaycana mənəvi dəstəyini xüsusi vurğulayıb: "Türkiyə bütün sahələrdə müttəfiqimizdir. Prezident Rəcəb Tayyib Ərdoğanın və türk xalqının dəstəyi Azərbaycanın hafizəsində yer alacaq."

İşğalçı Ermənistanın Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə raket hücumu da beynəlxalq mediada geniş rezonans doğurub. Türkiyə başda olmaqla, bir sıra xarici kanallar və saytlar hadisə barədə reportajlar, verilişlər, məqalələr verirlər.

Türkiyənin "TRT Haber" televiziya şirkəti videomüşahidə kamerasından görüntüləri təqdim edib. Bildirilib ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə hücum nəticəsində 9 nəfər həyatını itirib, 34 nəfər yaralanıb.

Ermənistan ordusu tərəfindən həyata keçirilmiş bu barbarlıq aktının, raket hücumunun tərəflər arasında əldə edilən humanitar atəşkəs barədə razılaşmadan cəmi bir sutka sonra həyata keçirildiyi də vurğulanıb.

Misirin "Almasryalyoum" informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi "Twitter" hesabında Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı paylaşdığı fikirlərinə geniş yer ayırıb. Portalın yaydığı xəbərdə Prezident İlham Əliyevə istinadla vurğulanır ki, Rusiya Qarabağın Azərbaycan torpaqları olmasını Ermənistana başa salmalıdır. Rusiya Ermənistanı inandırmalıdır ki, vəziyyətdən yeganə çıxış və xilas yolu yalnız Qarabağdan çıxmaqdadır. Həmçinin vurğulanıb ki, Ermənistanın Gəncə şəhərinə raket hücumunu müharibə cinayəti, erməni faşizminin daha bir təzahürü adlandıran Prezident İlham Əliyev Azərbaycanın bu cinayətə layiqli cavab verəcəyini deyib.

***Əfsanə BAYRAMQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 16 oktyabr.- S.10.